

# Arif Ələkbər oğlu Süleymanov – 60 il!

2021-ci il noyabr ayının 15-də tanınmış neftçi alim-pedaqoq, texnika elmləri doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Neft-qaz mühəndisliyi" kafedrasının professoru Arif Ələkbər oğlu Süleymanovun 60 yaşı tamam olur.

A.Ə. Süleymanov 15 noyabr 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti-ADNSU) qaz-neftmədən fakültəsinə daxil olmuş və 1983-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. Gənc mütəxəssis kimi təyinatla Azərbaycan Elmlər Akademiyasının "Dərin neft-qaz yataqlarının problemləri" İnstitutunda əmək fəaliyyətinə başlamışdır.

1986-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasının aspiranturasına daxil olmuş və 1989-cu ildə "Quyuların məhsuldarlığının artırılması üçün qaz-kondensat sistemlərinin süzülməsinin təcrübi tədqiqatında üsulların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

A.Ə. Süleymanov dissertasiya işinin müdafiəsindən sonra "Neft-qaz yataqlarının işlənməsi və istismarı" (indiki Neft-qaz mühəndisliyi) kafedrasında kiçik elmi işçi, "Neftçıxarma texnika və texnologiyası" və "Dəniz neft yataqlarının işlənməsi" problem laboratoriyalarının aparıcı elmi işçisi vəzifəsində çalışmışdır.

O, 2003-cü ildə müsabiqə yolu ilə ADNA-nın "Neft-qaz mühəndisliyi" kafedrasında dosent vəzifəsinə seçilmiş və 2016-cı ildə isə "Karbohidrogen yataqlarının işlənməsində qeyri-taraz proseslərin araşdırılmasına dinamik yanaşma" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək – "Dəniz faydalı qazıntı yataqlarının işlənməsi texnologiyası" ixtisası üzrə texnika elmləri doktoru alimlik dərəcəsini almışdır. 2019-cu ildən isə "Neft-qaz mühəndisliyi" kafedrasının professoru vəzifəsində çalışır.

Arif müəllim ADNSU-nun nəzdində "Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-nin "Dəniz neft yataqlarının işlənməsi" problem laboratoriyasının müdiridir. Hal-hazırda 5 doktoranta elmi rəhbərlik edir.

A.Ə. Süleymanov 140 elmi əsərin, o cümlədən monoqrafiya, dərslik, müəlliflik şəhadətnaməsi və patentlərinin, həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və ADNSU tərəfindən təsdiq olunmuş təlimatların müəllifidir.

2017-ci ildən fəlsəfə və elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsi üzrə D.02.141 Dissertasiya Şurasının, 2019-cu ildən ED 2.03 Dissertasiya Şurasının üzvü və seminarın sədridir.

Arif Süleymanov bilik və bacarığını, böyük nəzəri bazasını gənclərin elmi yaradıcılığı və dünyagörüşlərinin formalaşması, yüksəkixtisaslı mütəxəssis kimi yetişməsi işinə sərf edir, təhsilin, neft elminin inkişafı üçün çalışır. O, dəfələrlə xaricdə və respublikada keçirilən beynəlxalq konfranslarda öz elmi tədqiqatları barədə çıxışlarında Azərbaycanı layiqincə təmsil etmişdir. Neft-qaz yataqlarının işlənməsi və istismarı sahəsində qarşıya çıxan problemlərin həllində, Respublikamızın neft-qaz sənayesinin gələcək inkişaf perspektivlərini təmin edəcək yüksəkixtisaslı elmi kadrların hazırlanması sahəsində Arif müəllimin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Hörmətli Arif müəllim!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, elmi-pedaqoji fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**ADNSU-nun "Neft mühəndisliyi"**
**kafedrasının kollektivi,**
**"Neftin, qazın geotexnoloji problemləri**
**və Kimya" ETİ-nin kollektivi**